ədalət.- 2023.- 17 iyun.- S.6.

# ŞAHNAZ ŞAHİNİN ŞUŞA HAQQI



***VAQİF YUSİFLİ***

**Şahnaz Şahin Doqquz şeir kitabının müəllifi olan bu şair xanımı məncə tanıtmağa, onun şeir kitabları barədə söz açmağa ehtiyac duymadım. İndi onu doğulub boya-başa çatdığı Sabirabadda deyil, Azərbaycanın bütün şeirsevər şəhər, rayon və kəndlərində tanıyanlar az deyil. Yazdığı şeirlər tanıdır onu. O şeirlər ki, oxucu ürəyitnə yol tapır. O şeirlər ki, təkcə məzmununa görə deyil, həm də lirik duyğuların poeziya dililə ifadəsinə görə. Özü də Şahnaz xanım son on ildə daha çox bir mövzuya müraciət edir- Azərbaycanın İkinci Qarabağ müharibəsinin qəhrəmanlarına və şəhidlərinə həsr etdiyi şeirldərlə, poemalarla diqqəti cəlb edir. Müharibə təkcə igidlər, qəhrəmanlar, şəhidlər yetirmir, həm də şairlər yetirir. Bu gün müharibə mövzusu bizim şairlərin yaradıcılığında aparıcı yer tutur və Şahnaz Şahin də bu şairlərin sıralarında öncüllərdən biridir.**

Budur, onun yeni kitabı- "Şuşa haqqı". 28 il biz Şuşa həsrətiylə yaşadıq. Şuşanın işğalı təkcə mədəniyyət mərkəzi olan tarixi bir şəhərin işğalı deyildi, həm də gözəlliyin, Xarı bülbülün, Natəvanın vəsf etdiyi güllərin, çiçəklərin də işğalıydı. 28 ildə bizim hər birimizin boynunda bir Şuşa haqqı vardı.

*Adı çəkiləndə ürəyim əsir,*
*Hüsnünə sözlərdən çələng hörürəm.*
*Yollavra çıxıram güllü-çiçəkli,*
*Baxıb hər tərəfi Şuşa görürəm.*
*Qələbə ətrini yayır küləklər,*
*Qanımda dolanır, ruhumdan keçir.*
*Şəhid qardaşımın son vəsiyyəti,*
*Könlümdən od alır, ahımdan keçir*
*Mən indi hər yeri Şuşa görürəm.*

"Şuşa haqqı" poemasında Şuşa tarixinin üç əsas dövrü və üç obrazı canlandırılır. İşğaldan əvvəlki, işğal zamanı və son illər-azad Şuşa dövrləri. Əlbəttə, poeziya ilə tarix burada bir vəhdət halındadır. Amma poeziya tarixdən fərqli olaraq nəyisə nəql eləməyə yox, bədii idrak yolu ilə gedir- "həyat hardadırsa, poeziya da oradadır".

***Bülbülün, Üzeyirin, Natəvanın***
***Yaralarından axan qan da***
***Şuşa deyir...***
***Bu saat***
***Və ilin dörd fəsli də Şuşadır...***
***Yağış tökür,***
***qar yağır,***
***külək əsir,***
***Günəş doğur Şuşa!...***

Poemada Şuşa həsrəti ilə bağlı düşüncələr aparıcı yer tutur. Bu da təbiidir. Müəllif Şuşanın alınmasına qədər keçirdiyi nisgilli duyğuları qələmə alıb. Yəni o 28 ildə hamımızın ürəyində o hisslər qövr edirdi. Biz də yuxular görürlük, o yuxularda qan qardaşlarımızın səngərlərdə oyaq qalmasından xəbər tuturduq, qarşıdan narahat səhərlər gəldiyini görürdük və bir də "Yenə adavmların başları üstə Fəxri Xiyabana şəhidlər gəlir. Poemada Həsrət obrazı rəmziləşir, "Hər düşən axşamı, gələn sabahı, Hər gülü, çiçəyi yol gözləyirdi". Amma bu Həsrətin sonu gəlir, yuxular öz ahəngini dəyişir. "Dahav ürəklə oxuyur, Güllələr qələbə marşı... Allah, bu günü də gördük, Şuşaya yollar açılıb". Beləliklə, bir poemada Həsrətdən Qələbəyə doğru yol gedirik. Diqqət yetirsəniz, müasir poeziyamızda da eyni prosesi müşahidə edə bilərik.

Şahnaz Şahin "Zəfər nəğmələri" poemasında İkinci Qarabağ müharibəsinin qələbəyə aparan uğurlarından söz açır.

Bu poemada Qələbənin nəyin bahasına əldə olunması ayrı-ayrı bölmələrdə öz əksini tapır. Öncə biz



Azərbaycan əsgərinin obrazı ilə tanış oluruq. Bu əsgərin keçirdiyi əhval-ruhiyyə bizə yaxşı tanışdır. Sadəcə, bu əsgərin ümumiləşdirilmiş obrazı (yəni o əsgərin simasında hamımıza məlum cizgiləri görürük) canlandırılır.

***Xeyir-dua ver ana,***
***Yetişdi qisas anı.***
***Tökməyə düşmən qanını,***
***Qarabağa gedirəm.***
***Gözləməkdən usandıq,***
***Ta keçsin bu üzüntü.***
***Haqqın əlindən tutub***
***Qarabağa gedirəm.***
***Bu son döyüş, son dava...***
***Qarabağ alınacaq!***

Xatırlayaq böyük qələbəmizin ilk günlərini. Bütün Azərbaycan gəncliyi müharibə əhval-ruhiyyəsi ilə yaşayırdı, qisas və intiqam hissləri onları cəbhəyə, vuruşa səsləyirdi. Şahnaz Şahin də bir Azərbaycavn əsgərinin (dahav doğrusu, əsgərlərinin) keçdiyi zəfər yolunu işıqlandırır.Bu yolda

***Dünən qonşu kəndə şəhid gəldi,***
***Qəzəbim bi randa körükləndi.***
***Mindi köhlən atın***
***Sürdü əsgərliyə.***

"Zəfər nəğmələri" poemasında Ş.Şahin Azərbaycan əsgərini İkinci Qarabağ müharibəsinin 44 günlük zəfər yolları ilə irəlilədir.

Azərbaycan əsgəri qələbə bayrağını vüqarla dalğalandırır, Şuşanın, Füzulinin, Ağdamın, Qubadlının, Kəlbəcərin, Laçının, Zəngilanın kəndlərini, qəsəbələrini azad etdikcə, bu bayraq qələbə simvoluna çevrilir. Əlbəttə, 44 günlük qələbəmizin memarı da poemada qürurla yad edilir: "Ən gözəl şeiri sən yazdın, Ali Baş Komandanım!". Bizim dilimizdə teztez səslənən bir sıra kəlmələr (rəmzlər, simvollar) Ş.Şahinin "Zəfər nəğmələri"nda həm də reallı ğa çevrilir:

"Dünyanın ən uca yerindən asdıq - Asdıq Qarağağdan Bayrağımızı!". Poemanın son bölümündə bu zəfər nəğmələrinin qələbə akkordları səslənir:

*Qəhrəman Ordumuz düzülüb səf-səf,*
*Başını dik tutub nizamla keçir.*
*Azadlıq Meydanı qaynar bir ocaq,*
*Danışır aramla İlham Əliyev:*
*"Nə vaxt baş qaldırsa bilsin erməni,*
*Yenə də taleyi belə olacaq.."*
*Ərdoğan səsinə səs verir onun,*
*Azərbaycan özgür, Qarabağ azad!..*

Beləliklə, Şahnaz Şahin "Şuşa haqqı" və "Zəfər nəğmələri" poemalarında Azərbaycan əsgərinin - Azərbaycan ordusunun keçdiyi qələbə yollarını poeziya diliylə işıqlandırır, nəinki yurdumuzun, bütün Şərqin və dünyanın ən gözəl şəhərlərindən biri olan Şuşaya sonsuz sevgisini izhar edir, Şuşa həsrətindən Şuşa qələbəsinə qədər hamımızın keçdiyi hissləri poezimya həqiqətinə çevirir. Amma onun "Mübariz" poeması haqqında da xoş sözlər söyləmək istərdik. Azərbaycanın Milli Qəhrəmanı, qeyri-adi, insan ağlına sığmayacaq igidliyilə ölümsüzlük qazanan Mübariz İbrahimov neçə şeirin, poemanın, publisistik əsərlərin əsas qəhrəmanı kimi canlandırılıb.

Təbii ki, onun qəhrəmanlığından söz açan hər bir əsərdə yeni söz, qəhrəmanın portretində yeni cizgilər diqqəti cəlb etməlidir. Şahnaz Şahin az-çox buna navil ola bilmişdir. Qəhrpəmanın atası ilə söhbət, onun monoloqu, vətənpərvərlik duyğuları ilə söylədiyi sözlər, andlar çox təbii və həm də poetik şəkildə ifadə olunur.

Mübarizi qəhrəmanlığa səsləyən içindəki, ruhundakı azavdlıq yanğısı idi. O azadlıq yanğısı kui, ürəyi yandırır. Poemanın "Epiloq" hissəsi ilə Ş.Şahinin "Şuşa haqqı" kitabı ilə bağlı sözümüzə xitam verək:

*Bir geri boylandı, bir önə baxdı,*
*Səngərdə şimşək tək çaxdı Mübariz!*
*Qeyrətiylə silahlanıb o gecə,*
*Düşmənin önünə çıxdı Mübariz!*

*Aşdı bircə anda heyrət səddini,*
*Anlatdı dünyaya onun həddini,*
*Gülləyə çevirib kin, nifrətini*
*Yağının köksünə sıxdı Mübariz!*

*Getdi son döyüşə o bilə-bilə,*
*Öc aldı, ucaldı cəsarətiylə,*
*Üçrəngli bayrağı öz əlləriylə*
*O gün Qarabağa taxdı Mübariz!*

*Ay ana, gözünün yaşını ud, bax*
*Başını dik saxla, lap uca tut, bax*
*Məğrur görkəmiylə çək yağıya dağ-*
*Ölməyib, yaşayır, sağdı Mübariz!*